| Sınaq | 2 | | | | |
|---|---|---|---|---|---|
| | Fizika | | | | |
| **1** | B | **11** | B | **21** | B |
| **2** | C | **12** | A | **22** | D |
| **3** | D | **13** | D | **23** | 2314 |
| **4** | C | **14** | C | **24** | 2 |
| **5** | D | **15** | E | **25** | 10 |
| **6** | A | **16** | B | **26** | 35 |
| **7** | E | **17** | C | **27** | 1AE2C3D |
| **8** | A | **18** | D | | |
| **9** | C | **19** | E | | |
| **10** | A | **20** | E | | |

## I qrup

**Tapşırıq 28.**

**Həlli:** Əvvəlcə cismlər sabit $a=\frac{F}{m_1+m_2}=\frac{F}{5m}$ təcillə hərəkət edir. İp qırıldıqdan sonra ikinci cismə təsir edən qüvvələrin əvəzləyicisi sıfıra bərabər olduğundan o, düzxətli bərabərsürətli hərəkt edir: $a_2=0 \Rightarrow \vartheta_2=\text{const}$

Birinci cisim isə $a_1=\frac{F}{m_1}=\frac{F}{2m}=2,5a$ təcillə düzxətli bərabər yeyinləşən hərəkət edir.

**Tapşırıq 29.**

**Həlli:** Sükunət vəziyyətindən ($\vartheta_0=0$) düzxətli hərəkətə başlayan avtomobil t=20 san ərzində s=300 m yol getdiyindən onun təcili $a=\frac{2s}{t^2}$ ifadəsi ilə hesablanır: $a=\frac{2s}{t^2}=\frac{2\cdot 300}{20^2}=1,5\frac{m}{san^2}$

Kütləsi m=2000 kq olan bu avtomobilə təsir edən əvəzləyici qüvvənin modulunu F=ma ifadəsi ilə hesablanır: $F=ma=2000\cdot 1,5=3000\,N=3\,kN$

*və ya*

$$F=ma=\frac{2s}{t^2}m=\frac{2\cdot 300}{20^2}\cdot 2000=3000\,N=3\,kN$$

***Cavab:*** ***3000 N, 3 kN***

**Tapşırıq 30.**

**Həlli:** Şərtə əsasən cisim x oxunun əksi istiqamətində hərəkət edir: $\vartheta_{0x}=-108\frac{km}{saat}=-30\frac{m}{san}$.

$a_x=5$ m/san$^2$ olduğundan sürətin proyeksiyasının zamandan asılılığı $\vartheta_x=-30+5t=5t-30$ (m/san) şəklində olur. Deməli, ilk 6 san ərzində bu cisim x oxunun əksi istiqamətində bərabəryavaşıyan hərəkət edir: $\vartheta_x=5t-30=0 \Rightarrow t=\frac{30}{5}=6\,san$

Sonrakı 4 san ərzində cisim x oxu istiqamətində bərabəryeyinləşən hərəkət edir: $\vartheta_x=5t=5\cdot t=20m/san$

və ya

$\vartheta=|5t-30|=|5\cdot 10-30|=20m/san$

Beləliklə, ilk 10 san ərzində cismin sürətinin modulunun zamandan asılılıq qrafiki aşağıdakı kimidir:




## IV qrup

**Tapşırıq 28.**

**Həlli:** İlk 20 san ərzində avtomobil sabit əvəzləyici qüvvənin təsiri altında düzxətli bərabər yeyinləşən hərəkət edir: $a=\frac{F}{m}=\text{const}$. 20-ci saniyənin sonunda avtomobilə təsir edən qüvvələrin əvəzləyicisi sıfıra bərabər olduğundan, Nyutonun I qanununa əsasən avtomobil düzxətli bərabərsürətli hərəkt edir:

$F_2=0,\ a_2=\frac{F_2}{m}=0 \Rightarrow \vartheta_2=\text{const}$

**Tapşırıq 29.**

**Həlli:** Sükunət vəziyyətindən ($\vartheta_0=0$) düzxətli hərəkətə başlayan avtomobil t=20 san ərzində s=300 m yol getdiyindən onun təcili getdiyi yol $a=\frac{2s}{t^2}$ ifadəsi ilə hesablanır: $a=\frac{2s}{t^2}=\frac{2\cdot 300}{20^2}=1,5\frac{m}{san^2}$

Kütləsi m=2000 kq olan bu avtomobilə təsir edən əvəzləyici qüvvənin modulunu F=ma ifadəsi ilə hesablanır: $F=ma=2000\cdot 1,5=3000\,N=3\,kN$

*və ya*

$$F=ma=\frac{2s}{t^2}m=\frac{2\cdot 300}{20^2}\cdot 2000=3000\,N=3\,kN$$

***Cavab:*** ***3000 N, 3 kN***

**Tapşırıq 30.**

**Həlli:** Minik avtomobili ilk $t_1=20$ san ərzində sükunət vəziyyətindən $a=\frac{2s}{t^2}=\frac{2\cdot 300}{20^2}=1,5\frac{m}{san^2}$ təcillə düzxətli bərabəryeyinləşən hərəkət edir: $\vartheta_1=1,5\cdot t$. 20-ci saniyənin sonundan avtomobilin sürəti $\vartheta_1=1,5\cdot t_1=1,5\cdot 20=30\frac{m}{san}$ olur. 20-ci saniyənin sonunda avtomobilə təsir edən qüvvələrin əvəzləyicisi sıfıra bərabər olduğundan, o, 30 m/san sürətlə düzxətli bərabərsürətli hərəkt edir:

Beləliklə, ilk 50 san ərzində avtomobilin sürətinin zamandan asılılıq qrafiki aşağıdakı kimidir:

